# Muğam aləminin beşiyi

"Muğam aləmi" Beynəlxalq Muğam Festivalı keçirilməyə başlayanda Şuşa hələ Ermənistanın işğalı altında idi. Festival Heydər Əliyev Fondunun təşəbbüsü ilə ilk dəfə 2009-cu ildə Novruz bayramı ərəfəsində Bakıda keçirildi. Həmin il martın 20-də Beynəlxalq Muğam Mərkəzində festivalın rəsmi açılış mərasimi oldu. Tədbir çərçivəsində beynəlxalq elmi simpozium, muğam ifaçılarının müsabiqəsi və çoxsaylı opera tamaşaları, həmçinin konsertlər təşkil edildi. İlk festival martın 25-də Heydər Əliyev Sarayında təşkil olunmuş qala-konsert ilə başa çatdı.




Festival gözəl bir mədəniyyət ənənəsinə çevrildi. Növbəti muğam festivalları 2011-ci, 2013-cü, 2015-ci, 2018-ci illərdə keçirildi. Festivallar çərçivəsində həm Bakıda, həm də ölkəmizin bir çox bölgəsində Azərbaycanın və xarici musiqiçilərin iştirakı ilə konsertlər verildi, beynəlxalq muğam müsabiqəsi, beynəlxalq elmi simpozium və ustad dərsləri təşkil olundu.

"Muğam aləmi" VI Beynəlxalq Muğam Festivalı isə bu il təşkil edildi. Əvvəlcə Bakıda konsertlər oldu. İyunun 23-də "Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı Azərbaycanın mədəniyyət paytaxtı Şuşada davam etdirildi. Muğamın sədaları gözəl məkanımızda eşidildi. Yaradıcılıq mərkəzinin və Xurşidbanu Natəvanın evinin qarşısında, eləcə də Bülbülün ev-muzeyində, "Qarabağ" hotelinin qarşısındakı parkda konsert proqramları təqdim olundu.

Azərbaycanın dünyanı heyran edən muğam sənətinin təbliğinə və inkişafına böyük töhfə olan Muğam Televiziya Müsabiqəsi isə 2005-ci ildən Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilir. İlk muğam müsabiqəsi dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin 120 illiyinə həsr edildi.

Musiqinin əhəmiyyətinin cəmiyyətə çatdırılması, bir sıra yeniliklərin əldə edilməsi məqsədilə keçirilən 16 aprel "Dünya Səs Günü" bu il Milli Konservatoriyanın təşkilatçılığı ilə mədəniyyətimizin paytaxtı olan Şuşada təşkil olundu.

Məlum olduğu kimi, Şuşa şəhəri 2023-cü ildə həm də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Odur ki, bu dəfə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının da iştirakçıları arasında TÜRKSOY-a daxil olan dövlətlər, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivləri vardı. Belə ki, mayın 9-dan 11-dək davam edən festivalda Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumu (Qaqauz Yeri), Özbəkistan, eləcə də Özbəkistanın Qaraqalpaqıstan Muxtar Respublikası, Rusiya Federasiyasının Altay, Xakasiya, Saxa (Yakutiya), Tatarıstan, Tıva respublikaları, Şimali Kipr Türk Cümhuriyyəti, Türkiyə, Türkmənistan təmsil olundu.

Qeyd etdiyimiz kimi, ötən il ölkəmizdə "Şuşa ili" kimi qeyd olundu. Bu il isə tarixi, mədəniyyəti zəngin Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı"dır. Bu münasibətlə də bir-birindən maraqlı, yaddaqalan tədbirlər düzənlənir.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 16 avqust.- S.11.